**Azərbaycan Respublikası Bakı şəhəri**
**Binəqədi Rayon Icra Hakimiyyəti başçısının**

# SƏRƏNCAMI

№ 110 "8" iyun 2021-ci il

**Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsinin ərazisində yerləşən şəhid "Ramiz Aboyev" adına mədəniyyət və istirahət parkının M.Ə.Rəsulzadə bələdiyyəsinin idarəetməsinə verilməsi haqqında**

Binəqədi rayonu M.Ə.Rəsulzadə bələdiyyəsi ictimai rəyi nəzərə almaqla (RB/278 saylı, 21.05.2021-ci il tarixli) yerli əhaliyə göstərilən sosial və mədəni xidmətlərin təşkili səviyyəsinin yüksəldilməsini, qəsəbə sakinlərinin asudə vaxtlarının səmərəli və düzgün keçirilməsini, nəticə etibarilə sakinlərin məmnunluğunu təmin etmək məqsədilə M.Ə.Rəsulzadə qəsəbəsində yerləşən şəhid "Ramiz Aboyev"in adını daşıyan mədəniyyət və istirahət parkının idarəçiliyinin M.Ə.Rəsulzadə bələdiyyəsinə həvalə edilməsini xahiş etmişdir.

M.Ə.Rəsulzadə bələdiyyəsinin inzibati ərazisində yerləşən "Ramiz Aboyev" adına mədəniyyət və istirahət parkı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13.04.2017-ci il tarixli, 148 saylı qərarının 2-ci bəndinə əsasən "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"ndan çıxarılmış və "Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 10.09.2019-cu il tarixli, 175 saylı sərəncamı ilə tabeçiliyinə götürülmüşdür.

Binəqədi rayonunun mərkəzi hissəsini əhatə edən M.Ə.Rəsulzadə qəsəbəsində yerləşən "Ramiz Aboyev" adına mədəniyyət və istirahət parkı uzun illər əhalinin sevimli istirahət mərkəzlərindən biri kimi fəaliyyət göstərsə də, son illərdə parkın maddi-texniki bazası zəifləmiş, parkın balansında olan tikililər yararsız hala düşmüş, attraksionlar fiziki və mənəvi cəhətdən köhnəlmiş, parkın ərazisinin işıqlandırılması, abadlaşdırılması və yaşıllaşdırılmasında problemlər yaranmışdır. Son illər ərzində baxımsızlıq səbəbindən park yararsız vəziyyətə düşmüş, habelə parkın ərazisində fəaliyyət göstərən çoxsaylı iaşə və ticarət obyektlərinin yaratdığı mövcud çatışmazlıqlar qəsəbə sakinlərində haqlı narazılıqların yaranmasına gətirib çıxarmışdır.

Yuxarıda qeyd olunanları və Binəqədi rayonu M.Ə.Rəsulzadə bələdiyyəsinin RB/278 saylı, 21.05.2021-ci il tarixli müraciətini nəzərə alıb, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.2.4, 4.16.9, 5.1.4 və 6.8-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

1. "Ramiz Aboyev" adına mədəniyyət və istirahət parkı əmlakı ilə birlikdə M.Ə.Rəsulzadə bələdiyyəsinin idarəçiliyinə verilsin.
2. "Ramiz Aboyev" adına parkın idarəetməsi ilə bağlı bütün səlahiyyətlər M.Ə.Rəsulzadə bələdiyyəsinə həvalə edilərək parkın gəlir və saxlanılması xərcləri yerli özünüidarəetmə orqanının büdcəsi hesabına idarə edilsin.
3. M.Ə.Rəsulzadə bələdiyyəsinə tövsiyə olunur ki, "Ramiz Aboyev" adına parkda fəaliyyət göstərən ictimai–iaşə və digər təyinatlı obyektlərin inventarizasiyası aparılsın, hüquqmüəyyənedici sənədləri olmayan tikili və qurğuların sökülməsi, torpaqların isə zəbtdən azad edilməsi məqsədilə qanunamüvafiq qaydada tədbir görülməsini təmin etsin.
4. Binəqədi rayon Mənzil - Kommunal Təsərrüfatı Birliyinin, "Bakı şəhər işığı" Elektrik şəbəkə müəssisəsinin Binəqədi rayon Texniki istismar sahəsinin və Binəqədi rayon Yaşıllaşdırma sahəsinin rəhbərlərinə tapşırılsın ki, parkın ərazisində vəzifələrindən irəli gələn məsələlərin icrasını təmin etsinlər.
5. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə tapşırılsın ki, sərəncamın surətinin məlumat və icra üçün M.Ə.Rəsulzadə bələdiyyəsinə və rayonun bütün aidiyyəti xidmət təşkilatlarına göndərilməsini təmin etsin.
6. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 20.04.2020-ci il tarixli, 54 saylı sərəncamı ləğv edilsin, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 10.09.2019-cu il tarixli, 175 saylı sərəncamının 2-ci bəndi isə qüvvədən düşmüş hesab edilsin.
7. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İskəndər Cahangir-zadəyə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN